AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

31 İYUL 2022-ci il BAZAR № 160 (7342) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ OLİMPİYA KOMİTƏSİ



# Müstəsna xidmətlər, möhtəşəm qələbələr

*Azərbaycan Milli Olimpiya Komitəsi 1992-ci ildə yaradılsa da, Beynəlxalq Olimpiya Komitəsi tərəfindən 1993-cü ildə tanınmışdır. Bu səbəbdən 1992-ci ildə Barselonada keçirilmiş XXV Yay Olimpiya Oyunlarında idmançılarımız Müstəqil Dövlətlər Birliyinin birləşmiş komandasının tərkibində iştirak etmişdir. 1994-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin, Milli Olimpiya Komitələri Assosiasiyasının və Avropa Olimpiya Komitəsinin prezidentləri Azərbaycanda Olimpiya Hərəkatının təbliği və Milli Olimpiya Komitəsinin fəaliyyəti ilə tanış olmaq üçün ölkəmizə səfərə gəlmiş, olimpiya hərəkatının real vəziyyətini və inkişaf perspektivlərini öyrənmişlər. Ölkədə idmanın inkişafına xüsusi əhəmiyyət verən ulu öndərin sayəsində 1996-cı ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə olimpiya oyunlarına qatılmış, Azərbaycan Atlantada 23 idmançı ilə təmsil olunmuş və bir gümüş medal qazanmışdır. Yarandığı 5 il ərzində əldə olunan nəticə bu sahədə əsaslı dönüşə ehtiyac olduğundan xəbər verirdi. Beləliklə, Milli Olimpiya Komitəsinin 1997-ci ilin 31 iyulunda keçirilmiş növbəti Baş Məclisi komitənin yeni idarə heyətini müəyyənləşdirdi və İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi.*

Bundan sonra Azərbaycanda olimpiya hərəkatı geniş vüsət aldı. Bu illər ərzində ölkə başçımızın rəhbərliyi ilə Milli Olimpiya Komitəsi fəaliyyətini günbəgün genişləndirərək böyük uğurlara imza atdı. İdmançılarımız ilk dəfə 1998-ci ildə Yaponiyanın Naqano şəhərində, 2002-ci ildə Solt Leyk Sitidə, 2004-cü ildə Afinada, 2006-cı ildə Turində, 2008-ci ildə Pekində, 2010-cu ildə Vankuverdə, 2012-ci ildə Londonda, 2014-cü ildə Soçidə, 2016-cı ildə Rio de Janeyroda güləş, güllə atıcılığı, boks, cüdo, taekvondo, kano sprint və ağır atletika idman növlərində keçirilən olimpiya oyunlarında iştirak etdilər.

Dövlətimizin başçısı və Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin diqqət və qayğısı, şəxsi nəzarəti, eləcə də UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın əzmkar və yorulmaz fəaliyyəti sayəsində 2015-ci ildə ölkəmizdə Birinci Avropa Oyunları yüksək səviyyədə keçirilmişdir.

**(davamı 3-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Tarixdə ilk dəfə keçirilən Bakı-2015 Avropa Oyunlarında Avropanın 50 ölkəsindən 10000 idmançı mübarizə aparmışdı. Avropa Oyunlarının təşkil edilməsi barədə qərar 2012-ci ildə Avropa Olimpiya Komitələrinin Romada keçirilən 41-ci Baş Assambleyasında qəbul edilmiş, Baş Assambleya iştirakçıları arasında keçirilmiş gizli səsvermə nəticəsində 48 ölkədən 38-i ilk Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar qəbul etmişdi. Bu baxımdan, Bakı-2015 Avropa Oyunlarının Azərbaycanın idman tarixində xüsusi yeri var. İlk belə tədbirə evsahibliyi edən Azərbaycan dünya ictimaiyyəti qarşısında öz mövqeyini daha da möhkəmləndirmiş, müstəqil və güclü bir dövlət olduğunu dünyaya bəyan etmişdi.

Bakıda təşkil edilmiş mühüm beynəlxalq yarışlardan biri - 170-dən çox ölkədən 3 minədək nümayəndəni əhatə edən 42-ci Ümumdünya Şahmat Olimpiadası Azərbaycanda keçirilən ən kütləvi yarışlardan biri kimi tarixə düşmüşdür. Belə ki, 2015-ci ildə Şahmat üzrə Dünya Kubokuna evsahibliyi etmiş ölkəmizdə növbəti il ilk dəfə Beynəlxalq Şahmat Federasiyası (FİDE) tərəfindən təşkil olunmuş, iştirakçılarının ümumi sayı 1587 nəfər olan 42-ci Ümumdünya Şahmat Olimpiadası keçirilmişdir.

Formula 1 yarışlarının Avropa qran-pri mərhələsi Bakıda təşkil olunmuş ən mötəbər yarışlardan biri olmuşdur. 2016-cı ildə Bakı dünyanın ən aparıcı avtoidman yarışı olan "Formula 1-ə evsahibliyi etmiş, "Yarışın Azərbaycanda keçirilməsi bizim tarixi nailiyyətimizdir, bu yarış bir daha Azərbaycanın gücünü göstərdi", - deyən və Formula 1 yarışlarına böyük maraq göstərən Prezident İlham Əliyev 20 inkişaf etmiş şəhərdə keçirilən Formula 1 üçün Bakının 21-ci şəhər olduğunu bildirmişdir. Bundan başqa, 17 yaşadək futbolçular arasında Avropa çempionatının final mərhələsi də Bakıda keçirilmiş, bu mötəbər yarışda qitənin 16 ölkəsini təmsil edən komandalar qələbə uğrunda 17 gün ərzində gərgin mübarizə aparmışlar.

2017-ci ildə isə ölkəmiz IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etmişdir. Belə ki, "Gücümüz həmrəylikdədir" devizi ilə may ayının 12-22-də Bakının 14 idman qurğusunda idmanın 20 növü üzrə yarışlar keçirilmişdir. İslam Həmrəyliyi İdman Federasiyasının səkkizinci seçilmiş Baş Assambleyası Səudiyyə Ərəbistanının Ciddə şəhərində IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Azərbaycanda keçirilməsinə qərar vermişdi. 21 idman növü üzrə 54 dövlətin 3 mindən çox idmançısının mübarizə apardı-

# Müstəsna xidmətlər, möhtəşəm qələbələr

ğı idman oyunlarında Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlmişdi.

MOK-un fəaliyyətinə ən yüksək qiyməti Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti cənab Jak Roqqe vermişdir: "Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək olmalıdır". Avropa Olimpiya Komitələrinin sabiq icraçı prezidenti Janez Koçijançiç isə 2017-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasının 25 illik yubileyi münasibətilə təntənəli mərasimində MOK-un Prezidenti İlham Əliyevi təbrik edərək demişdir: "Azərbaycan xalqının idman sahəsində əldə etdiyi nailiyyətlər fantastikdir. Siz Avropa Oyunlarında böyük sayda medallar qazandınız. İslam Həmrəyliyi Oyunlarında isə qazandığınız medalların sayı ondan da çox oldu. Cənab Prezident burada qeyd etdi ki, Olimpiya Oyunlarında 18 medal qazanılıb. Bu, bir daha onu göstərir ki, Siz qarşınıza qoyduğunuz ümumi məqsədə nail olmusunuz. Məhz bunu idmanı milli səviyyədə inkişaf etdirməklə, cəmiyyət daxilində idmanın daha da kütləviləşdirilməsi üçün çalışaraq Siz bir növ yeni bir səhifəni açmısınız".

Həmin tədbirdə iştirak edən Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer ölkə başçısı İlham Əliyevi, Birinci vitse-prezident Mehriban Əliyevanı və bütün Azərbaycan xalqını Azərbaycan Milli Olimpiya Komitəsinin 25-ci ildönümü, o cümlədən idman sahəsində qazanılan uğurlara görə təbrik etmişdir: "Siz təhsildə, elmdə, ölkənizin gələcəyi ilə bağlı olan bir çox sahələrdə böyük nailiyyətlər əldə etmisiniz. Azərbaycan ilk Avropa Oyunlarını 2015-ci ildə keçirdi. 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları burada təşkil olundu. Bir çox Avropa və dünya çempionatları da ölkənizdə keçirilib. Bu cür tədbirləri keçirərək Siz bu sahəyə böyük sərmayələr qoyursunuz, o cümlədən idmanı inkişaf etdirirsiniz, ölkənizin mədəni irsini daha da geniş coğrafiyada təbliğ edirsiniz. Mən sizin hamınıza beynəlxalq idman hərəkatına, Beynəlxalq Olimpiya Hərəkatına verdiyiniz töhfəyə görə təşəkkürümü bildirirəm".

Ölkəmizdə idmanın dinamik inkişafı, olimpiya ideallarının təşviqi istiqamətində məqsədyönlü, ardıcıl fəaliyyət göstərən Milli Olimpiya Komitəsi ötən 30 il ərzində Azərbaycanın idman infrastrukturunun yenilənməsində, idmanın kütləviliyinin artırılmasında, milli olimpiya hərəkatının genişləndirilməsində və ölkə vətəndaşlarının sağlam həyat tərzinin təbliğində mühüm xidmətlər göstərir. Ölkəmiz mühüm olimpiya oyunlarına evsahibliyi edir. İdmançılarımız Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil edirlər.

Bütün bunlar Azərbaycanda idmanın inkişafına, onun kütləviliyinin təşviq olunmasına xüsusi diqqət və qayğı göstərən, 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyevin sayəsində mümkün olmuşdur. Azərbaycanda idmanın inkişafı daim dövlətin diqqət mərkəzində olmuş, ölkənin bir çox şəhərlərində olimpiya idman kompleksləri tikilib istifadəyə verilmiş, xüsusilə gənclər arasında idmanla məşğulluğun daha geniş yayılması üçün çoxsaylı tədbirlər həyata keçirilmişdir. Azərbaycanda mötəbər beynəlxalq səviyyəli idman yarışları, o cümlədən dünya və Avropa çempionatları keçirilmiş və bu yarışlarda Azərbaycan idmançıları da uğurla iştirak etmişlər.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 31 iyul.- S. 3.